# Bəydililər

Bəydili (ya da Bəydeli, həmçinin Bəydilü), keçmiş Türk tayfası.

***Adı və mənşəyi.*** Bu tayfa Mahmud Kaşğarlının «Divanü Lüğətit Türk»ündə iyirmi iki Oğuz boyundan biri kimi qeyd olunmuşdur. Onların ənənəvi damğaları  olmuş, onqunları isə bürküt idi. Adın Kaşğarlı tərəfindən 1072-də verilmiş bilinən ən əski biçimi Bəgtelidir (Bəgtili) və dəqiq olaraq Türkcə müəyyənləşdirilə bilmir; bir sıra digər Türk tayfa adları kimi, bəlkə də bu Ön-Türkcə bir substrat qalıqdır. Mübarəkşah (1206) ilk olaraq bu adı Oğuzlaşmış biçimdə Bəgdeli (Bəgdili) kimi yazmışdır. Rəşidəddin (1300) Bigdeli (Bəgdili) yazır və izahatında məşhur etimologiyaya istinad edir. Son olaraq, İskəndər Bəyin (1616) əlyazmalarında Bigdeli ilə yanaşı, biz Bəgdilü yazılışını da görürük. İskəndər Bəy bu tayfanı qüdrətli Şamlı oymağının bir tirəsi kimi təsvir edir. Bəydili adı 16-cı yüzildə Osmanlı tahrir dəftərlərində 23 yer adında görünür — Qayı, Bayat, Avşar və digər boy adlarına rast gəlinmə ilə müqayisədə nisbətən az saydadır. Bəydili toponimlərinin çoxunun olduğu bölgə quzey mərkəzi Anadolu idi. Türkiyənin müasir coğrafi kitabçalarında Bəydili adında yalnız doqquz yer göstərilir ki, bunların da çoxusu mərkəzi Anadoludadır. SSRİ Coğrafi Kitabçası Azərbaycan SSR-də iki yer adı kimi Bəydili və Bəydilli göstərir. Göklən Bəydililər (həmçinin, Çaku Bəydili adlanırlar) Astarabadda Ətrək və Rud-e Gürgan çayları arasında yaşayırlar. Onların tirələri Pank, Aman-Xoca, Boran və Qarışmaz adlanır. Oberlinqin sözlərinə görə, Bigdeli adında iki kiçik tirə İranın güneyindəki Qaşqay boy birliyinin Kəşküli tayfasına mənsubdur.

***Erkən tarix.*** 14-cü yüzildən öncə heç bir dəqiq bilgi gəlməmiş olsa da, Bəydili boyu üzvlərinin 11-ci yüzildə İran və Anadolunun Səlcuqlar tərəfindən fəthində rol oynadıqlarını güman etməyə əsaslar var. Digərləri 13-cü yüzildə Monqol istilasından qaçaraq Suriyaya çatmış və güclərini Məmlüklərlə birləşdirmiş görünməkdədirlər. 14-cü yüzilin ikinci yarısında onlar Taşqun Oğullarının başçılığı altında olaraq göstərilirlər. Suriyadan onlar güney və gündoğu Anadoluya və daha sonra İrana yayılmış, orada Ağqoyunluların və Səfəvilərin hakimiyyəti altında bəzi önəmli mövqelər əldə etmişlər.

***Anadolu və Suriya Bəydililəri.*** 15-ci yüzildən 17-ci yüzilədək böyük bir Bəydili topluluğu Hələb və Diyarbəkir arasındakı bölgədə yaşayır və burada ən yaxşı otlaqlara sahib idilər. 17-ci yüzildə bu topluluq, təxminlərə görə, 12,000 alaçıq idi və Hələb Türkmənləri arasında birinci yerdə dururdu. Başqa bir bölük 16-cı yüzildə Sivas və Malatya arasında Yeni-İl qəzasına köçmüş, və onlardan bəziləri daha sonra güney istiqamətində Raqqa yaxınlığına yönəlmişdir. Digər qolları, 16-cı yüzildən başlayaraq Diyarbəkir qəzasında yaşamış Boz-Ulus, Adana yaxınlığında Varsaqlar arasında yaşamış Tarsus Bəydililəri və Anadolunun Kıbrısla üzbəüz güney sahilindəki İçel Bəydililəridir.

***İran Bəydililəri.*** Anadoludan olan tayfalarla yanaşı, quzey Suriyadan olan, toplu olaraq Şamlı kimi tanınan və əsasən Türkmənlərdən təşəkkül tapan tayfalar da 1501-ci ildə Səfəvilər dövlətinin qurulmasında rol oynamışlar. (Türkman sözü ilk olaraq qeyri-müsəlman Oğuzları nəzərdə tuturdu, ancaq 14-cü yüzildən bəri Oğuz köçərilərini ifadə etmişdir) Şamlılar Şeyx Heydərin müridləri olduqdan sonra, onun oğlu, Səfəvi sülaləsinin banisi Şah İsmayıl üçün döyüşmüşdürlər. İlk başda Şamlı üç tayfadan ibarət idi, Bəydili, İnallı və Xudabəndəli, ancaq sonra daha bir neçə tayfa onlara birləşdirilmişdi. Uzun bir sürə Bəydili Şamlı arasında öncül mövqe tutmuşdur. Bir çox qüdrətli Qızılbaş sərkərdələri Bəydilidən idi, məsələn, Şah Təhmasibi qiyamçı oğluna qarşı mübarizədə dəstəkləmiş Bərəkət Xəlifə. Bəydili əmirləri I Şah Abbasın hakimiyyəti dövründə xüsusilə nüfuzlu olmuşlar. Onlardan biri, Nağdı Xan, eşik-ağası-başı və Mərv və Kuhgiluyə valisi vəzifəsində idi; onun oğlu Zeynal Bəy (daha sonra Xan), İskəndər Bəyə əsasən, ardıcıl olaraq tuşmal-başı, eşik-ağası-başı, və Rey valisi olmuşdur, və onun dörd qardaşı,

Məhəmməd Bəy, Heydər Bəy, Saru Bəy və Qapan Bəy ondan çox da aşağı mövqe tutmurdular. II Abbasın hakimiyyətində də, Bəydili əmirləri yüksək vəzifələr tuturdular, məsələn, Zəncan və Sultaniyyə valisi olmuş Səfiqulu Bəy. İskəndər Bəy hələ də Şamlıları Türkman oymaqları arasında birinci və Bəydililəri də Şamlı tirələri arasında birinci yerdə yerləşdirər ikən, və digər erkən 17-ci yüzil yazarı, İran Don Juanı, eynilə onların önəmindən və onun çağında «mayordomo mayor» vəzifəsində olmalarından xəbər verər ikən, 18-ci yüzil boyunca onların nüfuzu azaldı və üstünlük digər tayfalara keçdi. Görünüşə görə, Bəydilinin oturaqlaşması və əsasən Azərbaycanda məskunlaşması həmin yüzildə olmuşdur. Bayat kimi digər Oğuz boylarının adları bir sıra İran toponimlərində qorunur ikən, Bəydili adı yalnız şəxsi adlarda saxlanmış görünür ki, onlardan da ən çox tanınmışı Azər Bəydilidir.

---

***Gerhard Doerfer***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**